

Gürcüstanın **Marneuli rayonunda**azərbaycanlı **ana gənc qızına bıçaqla ciddi xəsarətlər yetirib** .

Hadisə ötən gün rayonun **Qızılhacılı kəndində** baş verib.

İnsidentin ana və qızı arasında yaranmış **ailə münaqişəsi zəminində** baş verdiyi bildirilir. Mübahisə zamanı ana qızına boğaz və sinə nahiyələrindən üç bıçaq yarası vurub.

Yaralanmış qız Marneuli xəstəxanalarından birinə çatdırılaraq, **əməliyyat olunub**. Yaralının vəziyəti orta-ağırdır.

Polis hadisəni törətməkdə şübhəli bilinən qadını saxlayıb. Gürcüstanın Daxili İşlər Nazirliyi qəsdən sağlamlığa ağır zərər vurma və ailə zorakılığı maddələri üzrə cinayət işi açıb.

Bundan əvvəl Lənkəran sakini həmkəndlisini bıçaqlayıb .